UOT 737

# RUS ALİMİ A.K.MARKOVUN AZƏRBAYCAN NUMİZMATİKASİNA GƏTİRDİYİ YENİLİKLƏR

**M.İ.VƏLİYEVA**
***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu***
***aylin70@mail.ru***

*Numizmatika bir elm kimi XVI əsrdə, kolleksiya toplama isə daha əvvəllər meydana gəlmişdir. "Numizmatika" latınca - sikkə, sikkələr haqda elm, zərbxana, həmçinin, pul dövriyyəsi tarixini öyrənən köməkçi fəndir. Numizmatikanın inkişafı antik sikkələrin öyrənilməsi ilə başlanılmışdır. Başqa-başqa sikkə və dəfinə tapıntılarının, zərbxanaların tədqiqi pulların mahiyyətlərini, qədim ticarət və sənaye yollarının istiqamətini, həmçinin əmtəəlik dərəcəsi, mübadilə formalarını müəyyən edir. Sikkələr, əsasən yazılı və arxeoloji materialların tədqiqi sayəsində öyrənilir.*

*Rusiyada sikkələrin elmi tədqiqinə XVIII əsrin 2-ci yarısından başlanılmış, XIX- XX əsrlərdə xüsusilə inkişaf etmişdir. Banisi Vyana numizmatı J.X.Ekkel olmuşdur.*

**Açar sözlər:** Rusiya, antik, tapıntı, ticarət, kolleksiya

Rusiyaya XVII əsrdən başlayaraq zorla ilhaq edilmiş qədim tarixə, dövlətçiliyə, mədəniyyətə malik olan xalqlar slavyanlardan – ruslardan çox geridə qalmış feodalizm cəmiyyətində minillərlə yaşayan savadsız, dinə qulluq edən, ən adi mədəni münasibətlərdən kənarda qalan insan kütlələri və onların dözülməz istismarından bəhs edilirdi. Bununla da bu xalqların nə Ellin mədəniyyətinin yaradılmasında rolu, nə də qədim sivilizasiyaların iştirakçıları olması faktorları tam olaraq qəbul edilmirdi. Bu baxımdan da dövlət və dövlətçiliyin atributlarından olan sikkə və ya sikkə nominalları yalnız feodalizm dövrünün qalıqları kimi göstərilirdi.

Bu və digər obyektiv, subyektiv səbəblərdən rus alimləri məhz inkişaf etmiş feodalizmin pul və pul sistemini öyrənərkən konkret olaraq Azərbaycanda IX-XIII əsrlərə aid bir sox yenilikləri üzə çıxarmışlar.

Rusiyada I Pyotrdan sonra Ermitajın yaradıcısı olan II Yekaterina və I Pavelin həyat yoldaşı Mariya Fyodorovna pul kolleksiyalarına böyük maraq göstərmişlər. Konkret olaraq, Ermitajın zənginləşdirilməsi II Yekaterinanın adı ilə bağlıydısa, Mariya Fyodorovna da (1799-1828-ci illər) məşhur Pavlov sarayında yerləşdirilən pul kolleksiyasının yaradıcısı idi. Hər üç hakimiyyət nümayəndələri yığmış olduqları sikkələri dəqiq öyrənmək üçün Avropa ölkələrindən tanınmış

mütəxəssisləri Rusiyaya dəvət etmiş, onlar üçün bütün lazımi həyat şəraiti yaratmışlar. Bunlardan A.K.Markovun adını xüsusi qeyd etmək lazımdır. Adıçəkilən alim ixtisasca şərqşünas olmuş. Buna baxmayaraq, qısa bir zamanda numizmatikanın bir elm kimi formalaşmasında çox böyük rol oynamışdır.

A.K.Markov (1858-1920-ci illərdə) V.Q.Tizenqauzendən sonra Ermitajda Numizmatik fonda rəhbərlik etməyə başladı. Alim Parisdə şərqşünaslıq üzrə yüksək ali təhsil almışdı. Onun təhsil aldığı "Ecoll des lanques orientales" Avropanın ən məşhur şərqşünaslıq məktəbi hesab olunurdu. İkinci təhsilini Peterburq Arxeoloji İnstitutunda almışdı. A.K.Markov Ermitajda 1888-ci ildən çalışmağa başlamışdı.

1892-ci ildə Qafqazda hərbi qulluqda general rütbəsində xidmət edən A.V.Komarovun (1823-1904-cü illər) kolleksiyası əldə edilmişdi. Həmin illərdə digər bir Şərq pullarından ibarət kolleksiya 2-ci Qafqazarxası atıcı briqadanın komandiri polkovnik N.P.Lineviçdən (1838-1908-ci illər) satın alınmışdı. A.K.Markov tərəfindən hər iki kolleksiya yüksək səviyyədə qiymətləndirilərək izlənilmiş və müəllifin yazmış olduğu kataloqa daxil edilmişdi.

1896-cı ildə A.K.Markovun «Инвентарный каталог мусульманских монет Императорского Эрмитажа» (2, şək. 2.7) adlı fundamental əsəri çap olunmuşdu. Alim kataloqu tərtib edərkən vaxtilə B.A.Dornun Kəsranilər sülaləsinin genealogiyasına dörd yeni hökmdar adı əlavə etmişdi. Bunlar I Axsitan ibn Mənuçəhr, II Fəriburz ibn Afridun, III Fəriburz ibn Gərşəsb və II Axsitan ibn Fəriburz idi (3).

Azərbaycanın orta əsrlər numizmatikasının öyrənilməsində Aleksandr Karloviç Markovun əvəzsiz xidmətləri olmuşdur. Qeyd etmək lazımdır ki, A.K.Markov Ermitajın Münskabinetinin inkişafında xüsusi əməyi olmuş bir şəxsdir. Onun yazmış olduğu iki dəyərli "Cəlairi sikkələrinin kataloqu" (3) və "Şərqin sikkə dəfinələrinin topoqrasiyası" (4) adlı əsərində məhz Azərbaycan ərazisindən tapılan numizmatik materiallara xüsusi yer verilmişdi. Cəlairilərin sikkələrinə həsr olunmuş əsər 1897-ci ildə Sankt-Peterburqda çap olunmuşdur. Əsərdə, əsasən Göyçə dəfinəsi və ayrı-ayı yerlərdən aşkar edilən sikkələr öz əksini və ya geniş numizmatik tədqiqini tapmışdır. Müəllif qeyd edir ki, "İmperator Ermitajında Cəlairilərə aid olan sikkələrin sayı 224 ədəddir, yəni Britaniya muzeyindən 4 dəfə artıqdır (orada 66 ədəddir). Bu sikkələr, əsasən İrəvan quberniyasının Ordubad ərazisindəki Göyçə gölü ətrafından 1858-ci ilin iyul ayında aşkar edilmişdir. Dəfinədə 454 ədəd gümüş pul vardı. 1889-cu ildə əlavə olaraq auksionda doktor Jerson da Kunyanın Şərq pullarından ibarət kolleksiyası və alverçi A.Veyldən 5 qızıl, 12 gümüş, 1 mis sikkə alınmışdı" (3, 3).

Təkcə A.B.Komarovdan alınan kolleksiyada 2034 ədəd sikkə var idi. Onlardan 306 ədədi Sasanilərə, 7 kuşanşahlara, 2 buveylilərə, qalanı isə o cümlədən, Azərbaycanın daxil olduğu dövlətlər adından, bəzi yerli zərbxanalarda dövriyyəyə buraxılmışdı. N.P.Lineviçdən alınan sikkələr də bəzi unikal pulları ilə seçilirlər (7, 223-242).

Fakt özü-özlüyündə Azərbaycanın əzəli torpaqları haqqında müəyyən məlumatlar verir. Bu ərazilərin İrəvan quberniyasının Ordubad bölgəsində olması demək olar ki, heç bir qədim Ermənistanın Cənubi Qafqazda olmamasını sübut edir. Ümumiyyətlə, Cəlairilər dövlətinin tarixində olan bir çox məsələlərin məhz sikkə nümunələri vasitəsilə öyrənilməsi bu əsərdə mühüm əhəmiyyət kəsb edir. Belə ki, rəsmi olaraq, Azərbaycanın da daxil olduğu Cəlairilərin hakimiyyəti zamanı bu ərazi uğrunda çox ziddiyyətli, gərgin mübarizənin olması faktları haqqında dünya tarixində müəyyən məlumatlar vardı. Amma bu məlumatlar alimlər tərəfindən XX əsrin ikinci yarısından izlənsə də, XIX əsrin sonlarında A.K.Markov Cəlairilər dövlətinin siyasi tarixinin bəzi qaranlıq səhifələrini sikkə nümunələri vasitəsilə araşdırmağa cəhd göstərmişdir. Belə ki, ilk dəfə məhz A.K.Markov Cəlairilər dövlətinin yarandığı ilk zamanlarda dövriyyədə, əsasən Hülakilərin, konkret olaraq Əbu Səidin adından vurulan sikkə nominallarından tamhüquqlu tədavül vasitəsi kimi istifadə edildiyini xüsusi vurğulayaraq, burada az miqdarda zərb edilən yeni sikkələrin yalnız simvolik dövlət atributu xarakteri daşıdığını qeyd etmişdir. Bununla da Cəlairilər dövlətinin tərkibində olan Azərbaycan zərbxanalarında eyni prosesin baş verdiyi üzə çıxır, yəni burada da Əbu Səidin adından zərb edilən gümüş və mis sikkələr dövriyyədə qalmaqla, yeni pul nominalları az miqdarda bəzi şəhərlərdə zərb edilmişdir.

A.K.Markov yazır ki, 1340-cı ildən başlayaraq Cəlairilərin Bağdadda sikkəni öz adlarına zərb etdirmələri ölkənin iqtisadi vəziyyətini qaydaya salmaqdan çox, sikkə hüququnu, yəni hökmranlıq simvolunu öz adlarına çıxmaq şərtilə həyata keçirilmişdir. Çobani feodalları kimi tanınan Şeyx Həsən və Məlik Əşrəf XIV əsrin 40-50-ci illərində Hülaki şahzadələri – Satıbəy xatunun, Süleyman xanın, Ənuşirəvanın və Həsən xanın adlarından pul kəsdirməklə Azərbaycan və ya digər ərazilərdə Hülakilər dövlətinin hərtərəfli, yəni istər rəsmi, istərsə də hüquqi cəhətdən fəaliyyət göstərdiyini bildirirlər (1).

Təbrizdə 1357-ci ildə Qızıl Orda sikkələrinin kəsilməsi oranın Hülakilərin hakimiyyəti altında olmadığını göstərir. Cəlairi sultanı Əhməddən Teymurun tələbi o olur ki, sikkəni onun adına zərb etdirib, eyni zamanda, onun adından da xütbə oxutdurulsun.

Rus alimi A.K.Markov belə qənaətə gəlir ki, bununla da Teymur Əhmədi müstəqil sultanlıq səviyyəsindən aşağı düşürərək, özünün sadə bir əmiri dərəcəsinə enməsini sübut edirdi. Lakin Teymurun ölməsi haqda xəbər Azərbaycana çatar-çatmaz Mirzə Ömər sikkə və xütbəni öz adına oxutdurub, müstəqil olur, eyni zamanda, qardaşları ilə də bu haqda məsləhətləşmir. 1408-ci ildə Şirvanşah İbrahim Təbriz məscidində Qızıl Orda xanı Şadı bəyin adına xütbə oxutdurub, onun adından sikkə zərb etdirməklə monqolların hakimiyyətini xatırlatmaq və bununla da özünün monqolları mühafizə etdiyi üçün bütün Azərbaycanda hökmranlığa səlahiyyətli olduğunu göstərmək istəmişdir (8, 23-24).

Bəzi yerli alimlərimizə görə, Hülakilərə aid olan sikkələr XIV əsrin sonları, XV əsrin birinci yarısına qədər fəaliyyət göstərən yaşayış məskənlərindən, mədəni təbəqələrdən kifayət qədər aşkar edilir.

Bu səbəbdən də, arxeoloji qazıntılardan aşkar edilən Hülakilərə aid sikkələrin Cəlairilər dövlətində dövriyyədə olması faktı qüvvədə qalır. Alimin araşdırmalarına görə, ümumiyyətlə, bu dövlətdə 45 zərbxana fəaliyyət göstərmişdir. Müəllif bu zərbxanalardan bir neçəsinin adının oxunmasında, lokallaşdırılmasında öz nəzəriyyələrini xüsusi qeyd etmişdir. Maraqlıdır ki, bu zərbxanalar, əsasən Azərbaycan ərazisinə aiddir. Bunlardan - Qəleyi Əlincə, Əlincə qalası, Şabran, Şirvan, Qəbələ, Qara Ağac və Lənkəranı göstərmək olar.

Müəllifin bu zərbxanaların lokallaşdırılması haqqındakı bəzi mülahizələri sonrakı illərdə aparılan elmi araşdırmalar zamanı özünü doğrultmamışdı. O cümlədən, sikkələr üzərində Şabranın adının Bakı ilə eyni zərb edilməsi elmə məlum deyildir. A.K.Markov belə sikkə nümunələrinin nə dəqiq fotosunu, nə də numizmatik təsvirini verməşdir. Buna görə də bu adda zərbxananın Cəlairilər dövründə fəaliyyət göstərməsi şübhə yaradır. Ayrı-ayrılıqda Şabran və Bakı zərbxanalarının fəaliyyət göstərməsini sübut edən sikkə materialları, əksinə çoxluq təşkil edir.

İkinci belə bir müəmmalı fakt Şirvan şəhərinin məhsullarına aiddir. Müəllifə görə, Şirvan adında zərbxananın sikkə nümunələri İranda yerləşən şəhərə aiddir. «Dərbənd yaxınlığında yerləşən Şirvan adı bu sikkələrin üzərində vurula bilməzdi. Belə ki, Cəlairi Həsən Buzurqun adından 750-ci hicri ilində burada sikkə ola bilməzdi, çünki bu zaman hələ Şirvan ərazisi ona aid deyildir. Ümumiyyətlə, Şirvan zərbxanasının sikkə nümunələri yalnız Cəlairi Həsənə aiddir. Qeyd etmək lazımdır ki, dörd bu adda şəhər Farsda (İranda) yerləşmişdi (3, 122).

Beləliklə, A.K.Markov, ümumiyyətlə, Şirvanın Qafqaza aid olmasını şübhə altına alır. Digər bir zərbxana "Qara Ağac"dır. Müəllif qeyd edir ki, bu şəhər Şirvana aiddir və Şamaxı yaxınlığında onun xarabalıqları yerləşir (3, 122). Sonrakı tədqiqatlar bu ehtimalı təsdiq etmişdir. Belə ki, Teymurilər zamanında bu zərbxananın bir neçə sikkə nümunəsi aşkar edilmişdir (5).

Müəllifə görə, İ.A.Bartolemeyin əsərlərində oxunuşu "Lenki" kimi səslənən, Lənkəran şəhərinin adı, amma A.K.Markovun fikrincə, Bakuyya adının olması, ümumiyyətlə, qəbuledilməzdir. Ona görə ki, nə A.K.Markovdan əvvəl, nə də sonra Bakı şəhərindəki zərbxananın sikkələri üzərində heç vaxt "Lənkri" yer adı zərb edilməmişdir. Alimin dəyərli bir fikrinə görə, Əlincə, Ağrı (Akra), Qəbələ və Guştəspidən başqa, bütün digər zərbxanalar əvvəllərdə, yəni Hülakilər dövründə fəaliyyət göstərmişlər (3, 122).

Şərq numizmatikası tarixində, o cümlədən, Azərbaycan sikkəşünaslıq elmində nadir sikkələrdən birinin məhz Cəlairilərə aid olması adıçəkilən əsərdə öz əksini tapmışdır. Belə ki, üzərində zərb yerinin silindiyi, zərb tarixinin birinci iki rəqəminin, yəni 77 (?) oxunduğu bir mis sikkənin üz tərəfində tərəzi şəkli və onun hər iki qablarının arasında "mizan", yəni tərəzi obrazı yüksək

bədii tərtibatla verilmişdir. Oxşar tərəzi obrazları Romada imperatorluq dövründə qadın obrazı ilə əlində tərəzi kimi zərb edilməsi elmə məlumdur.

Digər bir mis sikkənin üzərində sağa tərəf hərəkət edən şir obrazı zərb edilmişdir. Monqollar tərəfindən Azərbaycan ərazisinə gətirilmiş bu cür heyvan surətinə Cəlairilər dövründə, ümumiyyətlə, nadir hallarda rast gəlinir. Görünür, Cəlairilər öz monqol-türk mənşəli olduqlarını zaman-zaman sikkələrdə göstərməyə nail olmuşlar. Amma bu cür canlı obrazı Cəlairilərin erkən dövrünə aiddir. Bu səbəbdən də A.K.Markovun təsvir etdiyi sikkənin də üzərində zərb tarixinin iki rəqəmi göstərilmişdir – 67 (?) hicri ili. Müəllifin əsərində təsvirini tapan sikkələr əksər hallarda isə klassik metroloji ölçülərə, bədii tərtibata, qəbul edilmiş ikonoqrafiyaya uyğun sikkələrdən ibarətdir. Sonrakı araşdırmalar bu cür klassik formata uyğun sikkələrin çox az hallarda istisna təşkil etdiyini göstərir.

A.K.Markovun ikinci akademik xarakterli əsəri "Şərq sikkələrinin dəfinələrinin topoqrafiyası (Sasani və Kufi)" adlı kitabı 1900-cu ildə nəşr edilmişdir (4). Əsərdə, adından göründüyü kimi, Sasanilərə aid olan sikkələr, ərəb xilafətinə aid rus, Avropa alimlərinin əsərlərində "Kufi" sikkələri adlanan dəfinənin tapılma yerləri və bəzi numizmatik məsələlər araşdırılır.

XX əsrdə aparılan elmi araşdırmalar nəticəsində məlum olmuşdur ki, Xəlif Əbd-əl Məlik Mərvanın Azərbaycanda dövriyyədə olan sikkələri azlıq təşkil edir və demək olar ki, nadir sikkə nümunələri sırasına daxildir. A.K.Markovun əsərində 1885-ci ildə Bakı şəhərinin qala divarlarının xarici hissəsinin (ikinci hissəsinin – müəllif) sökülməsi zamanı aşkar edilən iki ədəd pul nümunələrindən birinin Əməvi Əbd əl-Məlik Mərvanın adından zərb edilməsi haqqında 1887-ci ildə İmperator Arxeoloji Cəmiyyətinin qeydlərinə istinadən məlumat verilmişdir (4, 1).

Bundan başqa, Rusiyanın ayrı-ayrı vilayətlərinin muzeylərində 710-817-ci hicri ilində (1312-1419-cu illər) Bərdədə zərb olunan, Finlandiyadan tapılan Tiflisə aid olan bəzi sikkələr haqqında qısa məlumatlar vardı (4, 2).

Araşdırdığımız mövzuya uyğun olaraq daha bir kolleksiyanı qeyd etmək lazımdı. Belə ki, 1900-cu ildə A.K.Markov Şərq bölməsi üçün A.Q.Kovalyev adlı kolleksionerdən Səfəvilərin adından zərb edilən qızıl dinarlar almışdı.

A.K.Markov B.A.Dornun etdiyi səhvi təkrarlayıb Şirvanşahların Məzyədilər sülaləsini üç hissəyə bölərək, Kəsranilərin banisini Əbu-l-Muzəffər Mənuçəhr ibn Kəsrani kimi qeyd etmişdi. A.K.Markov Eldəgizlərin və Əhər məliklərinə aid olan bir neçə ədəd sikkənin numizmatik təhlilini vermişdi. Bununla belə müəllif sikkələrin tiplərə bölgüsünü və Eldəgizlərin hakimiyyət illərini düzgün təyin etməmişdi (6, 107).

Beləliklə, XIX əsrin əvvəllərinə aid bir çox rus alimlərinin əsərlərində Azərbaycan numizmatikasına dair maraqlı məlumatlar vardır. Bu faktların bəziləri öz elmi dəyərini saxlasa da, onların əksəriyyəti yerli numizmatlar tərəfindən yenidən öyrənilmişdir. Arxeoloji qazıntılardan aşkar olunmuş yeni tapıntılara əsasən, bir sıra məsələlər öz elmi həllini tapmışdır.

## ƏDƏBİYYAT


1. Piriyev V.Z. Azərbaycan XIII-XIV əsrlərdə. Bakı: Nurlan, 2003, 458 s.
2. Марков А.К. Инвентарный каталог мусульманских монет Императорского Эрмитажа. Санкт-Петербург: 1896, 879 с.
3. Марков А.К. Каталог Джелаиридских монет. Санкт-Петербург:1897,120 с.
4. Марков А.К. Топография кладов восточных монет (сасанидских и куфических). Санкт-Петербург: 1910, 148 с.
5. Пиркулиева Г.А. Денежное обращение и метрологии монет Азербайджана в конце XIV начале XV вв. (на основе нумизматических данных) автореф. дис. на соиск. уч. степ. канд. ист. наук. Баку, 1998, 25 с.
6. Сейфеддини М.А., Мирабдуллаев А.М. Денежное обращение и монетное дело Азербайджана IX-XIV веков (при феодальном государстве Ширваншахов и Ильдегизидов). Баку: Nafta-Press, 2004, 267 с.
7. Тизенгаузен В.Г., Линевич Н.П. Новые нумизматические приобретения Н.П.Линевича. Санкт-Петербург: Типография Императорской Академии Наук, 1896, 27 с.
8. Fraehn Ch. Ilchanorum seu chulagidarum numis. 1836, 120 p.


## НОВЫЕ ДАННЫЕ РУССКОГО УЧЕНОГО А.К.МАРКОВА ПО ИЗУЧЕНИЮ АЗЕРБАЙДЖАНСКОЙ НУМИЗМАТИКИ


**М.И.ВЕЛИЕВА**


**РЕЗЮМЕ**


В статье даны новые, неизвестные по сегодняшний день нумизматические факты , которые были опубликованы 150 лет тому назад в России известным востоковедом-нумизматом А.Марковым .Среди таких интересных фактов отмечены самые интересные, в том числе на основании чтение место чеканки на монетах из Эрмитажа становится известными названия городов Ленкри (Ленкорань), Базар (на территории современного Мугана) и т.д. Роль русского ученого нумизмата неоценима для уточнения очень важных вопросов истории монетного дела таких государств как Джелаиридов и место азербайджанских городов в развитии товарно-денежных взаимоотношений данного государства.



**Ключевые слова:** Россия, древний, находка, торговля, коллекция


## NEW DATA BY A.K.MARKOV TO STUDY AZERBAIJANI NUMISMATICS


**M.I.VALIYEVA**


**SUMMARY**


The article presents new and unknown to this day numismatic evidence, published 150 years ago in Russia by the known orientalist numismatist A.Markov.

Examples of interesting facts marked the most interesting, including those based on the reading of the place of minting the coins from the Hermitage became known city names Lenkri (Lenka early hour), Bazaar (in present-day Mugan) etc. The role of the Russian scientist is invaluable to clarify important issues of history of coinage states like Jhelairid Kingdom and place of Azerbaijani cities in the development of commodity-monetary relations of the State.



**Key words:** Russia, ancient, discovery, trade, collectors